**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN BƏSTƏKARLARININ FORTEPİANO ƏSƏRLƏRİNDƏ MUĞAMIN MƏQAM-İNTONASİYA XÜSUSİYYƏTLƏRİNİN TƏCƏSSÜMÜ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Nigar Nizami qızı Abasova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Xoreoqrafiya Akademiyasının "Musiqi sənəti" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Sonaxanım Qulam qızı İbrahimova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**İradə Tofiq qızı Köçərli**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Güllü Həsən qızı İsmayılova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Aytən Rauf qızı Babayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
_____________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
_____________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
_____________ **Aytac Elxan qızı Rəhimova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan musiqisində bəstəkar yaradıcılığının muğamla əlaqəsi həmişə ön planda durur. Muğam və bəstəkar yaradıcılığının qarşılıqlı təsiri musiqi üslubunun formalaşmasına yol açır. Bu baxımdan müasir dövrdə bəstəkar yaradıcılığının muğamla əlaqəsinin öyrənilməsi aktuallıq təşkil edir.

Azərbaycan bəstəkarlarının musiqi dilinin dərin kökləri muğamla bağlıdır. Bəstəkar yaradıcılığında müxtəlif janrlı əsərlərdə muğamın müəyyən cəhətlərindən – kompozisiya, məqam, intonasiya, melodika, ritmika, forma, üslub və s. xüsusiyyətlərindən istifadə edilir. Bu baxımdan Azərbaycan bəstəkarlarının fortepiano musiqisi də tədqiqat üçün zəngin material verir. Bəstəkarlıq üslubunun təkmilləşməsində mühüm əhəmiyyətə malik olan fortepiano musiqisi sahəsində həm muğam adı ilə bağlı əsərlər yaranmış, həm də muğamın məqam-intonasiya xüsusiyyətlərinin təzahürləri öz əksini tapmışdır. Bütün bunlar muğam və bəstəkar yaradıcılığının əlaqələrinin aktuallığını önə çəkərək, bilavasitə Şərq və Qərb musiqi ənənələrinin qarşılıqlı təsiri məsələlərinin tədqiqini istiqamətləndirir.

Fortepiano əsərlərinin musiqi dilinin xüsusiyyətlərinin araşdırılması zamanı muğamla bağlı olan məqamların klassik funksional sistemlə uzlaşması, məqamın melodik və harmonik dilə təsiri, formaquruculuğunda rolu kimi məsələlərə də diqqət yetirilir. Bu da bəstəkarların musiqi dilinin milli xüsusiyyətlərini üzə çıxarmağa və musiqi üslubunun formalaşmasında muğamın rolunu araşdırmağa imkan verir.

Azərbaycanda bəstəkar yaradıcılığının ənənəvi musiqi ilə qarşılıqlı əlaqələrinin bünövrəsini qoymuş dahi bəstəkar və musiqişünas Üzeyir Hacıbəylinin musiqi əsərlərində özünü göstərən ənənələrlə yanaşı, onun "Azərbaycan xalq musiqisinin əsasları"[1] fundamental elmi-nəzəri əsərində irəli sürülən müddəalara əsaslanmaqla, Azərbaycan bəstəkarlarının fortepiano musiqisində muğamla bağlı məqam-intonasiya xüsusiyyətlərini araşdırmışıq.

---

[1] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Apostrof çap evi. – 2010. – 176 s.

Görkəmli musiqişünas-alim Məmmədsaleh İsmayılovun [2] əsərləri məqam nəzəriyyəsini yeni elmi müddəalarla zənginləşdirmişdir. Ənənəvi musiqinin və bilavasitə muğamın müxtəlif istiqamətlərdə – tarixi, nəzəri, ifaçılıq məsələlərinin öyrənilməsi ilə bağlı tədqiqatlar sırasında Əfrasiyab Bədəlbəylinin[3], Elxan Babayevin[4], Tariyel Məmmədovun[5], Rəna Məmmədovanın[6], Ramiz Zöhrabovun[7] əsərlərini də qeyd etməliyik.

Musiqişünaslar Elmira Abasova[8], İzabella Abezqauz[9], Zemfira Səfərova[10] və b. ənənəvi musiqi və bəstəkar yaradıcılığının qarşılıqlı əlaqələrinə xüsusi diqqət yetirərək, Ü.Hacıbəylidən başlayan bu ənənənin Azərbaycan bəstəkarlıq məktəbinin təməl daşına çevrildiyini qeyd etmişlər. Azərbaycan bəstəkarlarının yaradıcılığına həsr olunmuş İmruz Əfəndiyevanın[11], Fərəh Əliyevanın[12], Zümrüd Dadaşzadənin [13] , Cəmilə Həsənovanın [14] , Şəhla Həsənovanın

---

[2] İsmayılov, M.C. Azərbaycan musiqisinin məqam və muğam nəzəriyyəsi / M.C.İsmayılov. – Bakı: Bakı Musiqi Akademiyası. – 2016. – 224 s.

[3] Bədəlbəyli, Ə.B. İzahlı monoqrafik musiqi lüğəti / Ə.B.Bədəlbəyli. – Bakı: Şərq-Qərb. – 2017. – 472 s.

[4] Babayev, E.Ə. Şifahi ənənəli Azərbaycan musiqisində intonasiya problemləri / E.Ə.Babayev. – Bakı: Elm. – 1998. – 146 s.

[5] Məmmədov, T.A. Azərbaycan aşıq yaradıcılığı. Dərslik. / T.A.Məmmədov. – Bakı: Apostrof. – 2011. – 648 s.

[6] Məmmədova, R.A. Muğam-sonata qovşağı / R.A.Məmmədova. – Bakı: İşıq. – 1989. – 128 s.

[7] Zöhrabov, R.F. Zərbi-muğamlar / R.F.Zöhrabov. – Bakı: Mars-Print. – 2004. – 406 s.

[8] Абасова, Э.А. Узеир Гаджибеков. Путь жизни и творчества / Э.А. Абасова. – Баку: Элм. – 1985. – 197 с.

[9] Абезгауз, И.В. Опера «Кероглы» Узеира Гаджибекова. О художественных открытиях композитора / И.В.Абезгауз. – Москва: Советский композитор. – 1987. – 232 с.

[10] Səfərova, Z.Y. Üzeyir Hacıbəyov yaradıcılığında nəzəri və estetik problemlər. / Z.Y.Səfərova. – Bakı: Elm. – 1985. – 208 s.

[11] Эфендиева, И.М. Васиф Адигезалов / И.М.Эфендиева. – Баку: Шур, – 1999. – 323 с.

[12] Əliyeva, F.Ş. Azərbaycan musiqisində üslub axtarışları / F.Ş.Əliyeva. – Bakı: Elm və həyat. – 1996. – 120 s.

[13] Dadaşzadə, Z.A. Cavanşir Quliyevin total musiqi axtarışları / – Bakı: Musiqi dünyası. – 2001, № 1-2 (7). – s. 87-90.

[14] Həsənova, C.İ. Üzeyir Hacıbəylinin yaradıcılığında milli musiqinin nəzəri əsasları / C.İ.Həsənova. – Bakı: Mars-Print. – 2009. – 320 s.

(Mahmudova)[15], Lüdmila Karagiçevanın[16], Könül Nəsirovanın[17], Gülzar Mahmudovanın[18], Aida Tağızadənin[19], İnna Pazıçevanın[20], Validə Şərifova-Əlixanovanın [21] və b. elmi əsərləri mühüm əhəmiyyətə malikdir.

Bizim müraciət etdiyimiz fortepiano musiqisi sahəsində də bu istiqamətdə tədqiqatlarda öz əksini tapan elmi müddəalar olduqca önəmlidir. Tədqiqatçı-alim Tərlan Seyidovun "Azərbaycan fortepiano musiqisi janrlarının inkişafı", "XX əsrin Azərbaycan fortepiano mədəniyyəti" [22] monoqrafiyalarında bəstəkarların yaradıcılığında fortepiano musiqisinin əhəmiyyəti açıqlanmışdır. Leyla Abasquliyevanın[23], Lalə Rzayevanın[24], Nigar Abasquliyevanın[25], Lalə

---

[15] Həsənova, Ş.H. Musa Mirzəyev / Ş.H.Həsənova. – Bakı: Apostrof çap evi. – 2012. – 178 s.

[16] Карагичева, Л.В. Кара Караев / Л.В.Карагичева. – Москва: Советский композитор. – 1960. – 160 с.

[17] Насирова, К.Я. Мелодика Кара Караева / К.Я.Насирова. – Баку: Шарг-Гарб. – 2000. – 330 с.

[18] Махмудова, Г.Р. Генезис и эволюция остинатности в азербайджанской музыке / Г.Р.Махмудова. – Баку: Нурлан, – 2006. – 434 с.

[19] Тагизаде, А.З. Джевдет Гаджиев / А.З.Тагизаде. – Баку: Ишыг. – 1979. – 104с.

[20] Пазычева, И.В. Вариантность в Азербайджанской музыке / И.В.Пазычева. – Баку: Элм и тахсил. – 2015. – 376 с.

[21] Шарифова-Алиханова, В.Ш. Асаф Зейналлы / Композиторы Азербайджана. – Баку: Ишыг. – 1986. – с. 173-202.

[22] Сеидов, Т.А. Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительство и композиторское творчество / Т.А.Сеидов. – Баку: – 2006. – 272 с.

[23] Абаскулиева, Л.Г. Основные тенденции формирования и развития азербайджанской профессиональной культуры: / Автореферат дис… кандидата искусствоведения. – Баку, 2005. – 28 с.

[24] Рзаева, Л.С. Современная фортепианная музыка Азербайджана (проблемы творчества и исполнительства): / Автореферат дис. кандидата искусствоведения. – Ленинград, 1990. – 24 с.

[25] Абаскулиева, Н.О. Стилевые черты и особенности интерпретации фортепианной музыки Мусы Мирзоева и Акшина Ализаде. / Автореферат дис… кандидата искусствоведения. – Баку, 2008. – 28 с.

Əliyevanın[26], Arzu Mustafayevanın[27], Nəzakət Rimazinin[28] və başqalarının tədqiqatları fortepiano musiqisinin araşdırılmasında mühüm rol oynayır.

Biz bütün bu tədqiqatlara əsaslanaraq, Azərbaycan bəstəkarlarının fortepiano əsərlərində muğamla bağlı məqam-intonasiya xüsusiyyətlərini təhlil etməyə çalışmışıq. Bu baxımdan tədqiqata cəlb olunan əsərlərin müəyyən çərçivə daxilində təhlilinin aparılması üçün onların janr və mövzu cəhətdən bölgüsünü vermişik. Bunlardan adı muğamla və muğama aid janrlarla bağlı əsərləri, müxtəlif proqramlı miniatürləri, fortepiano üçün kiçik həcmli prelüdləri və iri həcmli variasiyaları və s. nümunə göstərə bilərik. Tədqiqat prosesində müxtəlif nəsillərdən olan bir çox bəstəkarların fortepiano musiqisinə müraciət olunub. Asəf Zeynallının, Qara Qarayevin, Cövdət Hacıyevin, Fikrət Əmirovun, Tofiq Quliyevin, Vasif Adıgözəlovun, Sevda İbrahimovanın və Cavanşir Quliyevin fortepiano əsərləri tədqiqata cəlb olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığı təşkil edir. Tədqiqatın predmeti Azərbaycan bəstəkarlarının fortepiano musiqisində muğamın məqam əsası, melodik quruluşu, məqam-intonasiya xüsusiyyətlərinin araşdırılmasından ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bizim əsas məqsədimiz Azərbaycan bəstəkarlarının fortepiano əsərlərində muğamla bağlı məqam-intonasiya xüsusiyyətlərinin araşdırılmasından, muğamın bəstəkarların yaradıcılıq üslubuna və musiqi dilinə təsiri məsələlərinin öyrənilməsindən ibarətdir. Bu məqsəddən irəli gələrək, aşağıdakı vəzifələr həyata keçirilmişdir:

---

[26] Алиева, Л.Э. Фортепианные циклы композиторов Азербайджана (вопросы эволюции жанра и стиля): / Автореферат дис… кандидата искусствоведения. – Баку, 2004. – 28 с.

[27] Mustafayeva, A.S. Bəstəkar Sevda İbrahimovanın yaradıcılığı (milli ənənələr kontekstində): / Sənətşünaslıq namizədi dis. avtoreferatı. – Bakı, 2012. – 28 s.

[28] Римази, Н.Г. Черты стиля и вопросы интерпретации фортепианной и органной музыки Васифа Адигезалова: / Автореферат дис. доктора философии по искусствоведению. – Баку, 2011. – 24 с.

- Azərbaycan bəstəkarlarının fortepiano musiqisinin ümumi icmalının verilməsi; musiqi janrlarının tətbiqi və musiqi formalarının mənimsənilməsi məsələlərinə diqqət yetirilməsi;

- Fortepiano musiqisində bəstəkarların yaradıcılıq üslubu üçün önəmli olan cəhətlərin formalaşması, musiqi dilinin xüsusiyyətlərinin təkmilləşməsi məsələlərinə diqqət yetirilməsi;

- Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığında muğamdan istifadə üsulları və muğamın musiqi üslubuna təsiri məsələlərinin öyrənilməsi;

- Fortepiano əsərlərində məqam əsasının araşdırılması və muğamdan gələn məqam-intonasiya xüsusiyyətlərinin tədqiqi;

- Əsərlərdə melodik xüsusiyyətlərin öyrənilməsi;

- Fortepiano əsərlərinin quruluşunda və mövzunun inkişafı prosesində məqamın rolunun öyrənilməsi;

- Əsərlərin melodik və harmonik quruluşunda Azərbaycan milli musiqisinin məqam əsası ilə klassik major-minor sisteminin və müasir bəstəkarlıq yazı üsullarının əlaqələndirilməsi.

**Tədqiqat metodları.** Dissertasiyada musiqişünaslıqda qəbul olunmuş bir sıra tədqiqat metodlarından istifadə olunmuşdur. Bunların sırasında struktur, tipoloji, müqayisəli təhlil kimi metodları qeyd edə bilərik. Nəzəri musiqişünaslıqda tətbiq olunan bu metodlara əsaslanaraq, dissertasiyada fortepiano əsərlərinin musiqi dilində muğamla bağlı xüsusiyyətlərin, bilavasitə məqam əsasının tədqiqatı aparılmışdır. Bu baxımdan struktur metod üzrə təhlil əsərin tərkib hissələrinin qarşılıqlı əlaqələrinin üzə çıxarılmasına yönəldilir. Bu, bir tərəfdən, həm bəstəkar yaradıcılığına, digər tərəfdən, muğam sənətinə aiddir. Bu kontekstdə tipoloji metodun tətbiqi səmərəli nəticələr verir. Belə ki, tipoloji metoda əsaslanaraq, əsərlərin quruluş xüsusiyyətlərinin öyrənilməsi musiqi dilinin müəyyən cəhətlərinin – məqam-intonasiya və melodik tiplərinin sistemləşdirilməsinə imkan verir. Müqayisəli təhlil metodu sayəsində muğamın və bəstəkar əsərlərinin əlaqəli cəhətləri kimi məqam-intonasiya və melodik quruluş xüsusiyyətlərinin tədqiqi mühüm əhəmiyyət kəsb edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Ü.Hacıbəyli tərəfindən əsası qoyulmuş muğam və bəstəkar yaradıcılığının qarşılıqlı əlaqələri fortepiano əsərlərində öz inkişafını

tapmışdır.

- Muğam Azərbaycan bəstəkarlarının yaradıcılığının əsas qaynaqlarından biridir.

- Bəstəkar yaradıcılığında muğamın məqam, intonasiya, kompozisiya, melodika, ritmika və s. xüsusiyyətlərindən istifadə olunmuşdur.

- Azərbaycan bəstəkarlarının fortepiano musiqisində muğamdan istifadə əsasən məqam-intonasiya xüsusiyyətləri ilə bağlıdır.

- Muğam adlı əsərlərdə – muğam əsərin proqram əsası, üslub xüsusiyyəti və musiqi dilinin ifadə vasitəsi kimi nəzərdən keçirilir. Burada muğamdan istifadənin əsas iki üsulunun tətbiqi özünü göstərir.

- Əsasən uşaq aləminin təcəssümünə həsr olunmuş müxtəlif proqramlı fortepiano pyeslərində milli məqam-intonasiya xüsusiyyətləri musiqi dilinin əsas ifadə vasitələrindən birinə çevrilməklə əsərin obrazlı məzmununun, emosional xarakterinin açılmasında mühüm əhəmiyyət kəsb edir. Pyeslərin tonallıq planında klassik major-minor sisteminin məqam əsası ilə uzlaşması özünü büruzə verir.

- Fortepiano prelüdlərinin musiqi dilində major-minor sistemi, xromatik səs sistemi və milli məqam-intonasiya əsası qovuşdurulmuşdur.

- Azərbaycan bəstəkarlarının variasiyalarında forma-quruluş kompozisiyasının muğamla bağlı cəhətləri, inkişaf prosesində məqam-tonallıqların dəyişməsi əsas xüsusiyyətlər kimi götürülür.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq, Azərbaycan fortepiano musiqisində muğamın məqam-intonasiya xüsusiyyətlərinin öyrənilməsi məsələləri üzrə məqsədyönlü tədqiqat aparılmışdır. Azərbaycan bəstəkarlarının yaradıcılığında mühüm əhəmiyyət kəsb edən cəhətlərdən biri kimi muğamla qarşılıqlı əlaqələr, muğamın bəstəkar əsərlərinə müxtəlif təsirləri – məzmun, forma, melodika, məqam əsası və musiqi dilinin müxtəlif xüsusiyyətlərinə təsiri məsələləri açıqlanmışdır.

Tədqiqata cəlb olunmuş fortepiano əsərləri üzərində araşdırmaların daha səmərəli olması üçün onların bir neçə cəhətdən bölgüsü aparılmışdır. Bu baxımdan, ilk növbədə, muğam adlı

əsərlərə diqqət yetirilmişdir. Belə ki, bu kimi əsərlərdə muğamla bağlılıq bir neçə cəhətdən üzə çıxır. Muğam adı əsərdə mövzu, üslub, forma, musiqi dilinin xüsusiyyətlərini şərtləndirərək, təhlili konkret istiqamətə yönəldir.

Azərbaycan bəstəkarlarının müxtəlif janrlı fortepiano əsərləri – kiçik həcmli, müxtəlif məzmunlu miniatür əsərlərdən başlayaraq, iri həcmli variasiyaların musiqi dilində muğamla bağlı məqam, melodika, ritm-intonasiya məsələləri irəli sürülərək öyrənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində Azərbaycan bəstəkarlarının fortepiano əsərlərində muğamla bağlı məqam-intonasiya xüsusiyyətlərinin tədqiqata cəlb olunması bu istiqamətdə bir sıra nəzəri məsələlərlə, bilavasitə məqam nəzəriyyəsinin və muğamın nəzəri əsaslarının öyrənilməsi ilə bağlıdır. Bu baxımdan dissertasiya işində öz əksini tapmış tədqiqat materialından və əldə olunmuş elmi nəticələrdən həm elmi, həm də tədris sahələrində istifadə oluna bilər. Belə ki, Azərbaycan bəstəkarlarının yaradıcılığının musiqi dilinin öyrənilməsi ilə bağlı elmi tədqiqatlarda tətbiq oluna bilər. Eyni zamanda, ali musiqi məktəblərində tədris olunan "Azərbaycan xalq musiqisinin əsasları", "Azərbaycan ənənəvi musiqisi", "Musiqi forması", "Azərbaycan musiqi tarixi" və s. fənlərin tədrisində dissertasiyanın materialları faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları və nəticələri üzrə müəllifin məqalələri AAK tərəfindən tövsiyə edilmiş bir sıra nəşrlərdə – yerli və xarici elmi jurnallarda, elmi konfrans materiallarından ibarət toplularda çap olunmuşdur.

Bunlardan: "Музыковедение" beynəlxalq elmi nəşrində; "Musiqi dünyası" beynəlxalq elmi-musiqi jurnalında; "Sənət Akademiyası" beynəlxalq elmi-nəzəri jurnalında çap olunmuş məqalələri göstərmək olar.

Həmçinin, beynəlxalq və respublika elmi konfranslarının materiallarını: "Культура, наука и искусство в истории и современности". Beynəlxalq elmi-praktiki konfransı. Rusiya, Kazan, 25 mart 2021; "Bəstəkar və zaman" Respublika elmi konfransı. Azərbaycan, Bakı, 20-21 aprel 2021 (Bakı Musiqi Akademiyası); Beynəlxalq rəqs gününə həsr olunmuş "Xoreoqrafiya

sənətinin aktual problemləri” II Beynəlxalq elmi simpoziumu. Azərbaycan, Bakı, 30 aprel-1 may 2023 (Bakı Xoreoqrafiya Akademiyası) qeyd etməliyik.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Xoreoqrafiya Akademiyasının “Musiqi sənəti” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya “Giriş”, 3 fəsil, onların daxilində dörd paraqraf, “Nəticə” və “İstifadə edilmiş ədəbiyyat siyahısı”ndan ibarətdir. “Giriş” 10 səhifə olmaqla 16605 işarədən, I fəsil 54 səhifə olmaqla 80463 işarədən, II fəsil 42 səhifə olmaqla 54449 işarədən, III fəsil 48 səhifə olmaqla 59379 işarədən, “Nəticə” 6 səhifə olmaqla 11573 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi “İstifadə edilmiş ədəbiyyat siyahısı” istisna olmaqla ümumilikdə 224153 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli “Azərbaycan bəstəkarlarının əsərlərində muğamdan istifadə məsələləri” adlanır.** Bu fəsil iki paraqrafdan ibarətdir.

**I fəslin birinci paraqrafında – 1.1. “Bəstəkar yaradıcılığında muğama müraciətin əsas aspektləri” nəzərdən keçirilir.**

Bəstəkar yaradıcılığında fortepiano musiqisi xüsusi yer tutur. Bu sahə digər janrlarla yanaşı inkişaf etmiş və bəstəkarların yaradıcılıq axtarışları üçün zəmin yaratmışdır. Bu baxımdan XX əsrin 20-30-cu illərindən bu günə kimi Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığında müxtəlif janrlı rəngarəng əsərlər yaranmış və milli musiqi irsini zənginləşdirmişdir. Fortepiano musiqisi həmişə yaradıcılıq təşəbbüslərinə açıq olmuşdur. Buna görə də bu musiqi sahəsinin araşdırılmasında çoxcəhətli tədqiqat istiqamətləri özünü göstərir: bəstəkarların üslub xüsusiyyətlərinin özünəməxsusluğu və

dünya musiqisi aspektində yanaşma, milli ənənələrə əsaslanaraq formalaşan novator xüsusiyyətlər və s. bu qəbildəndir. Bu sırada bəstəkarların muğamdan yaradıcı şəkildə istifadəsinin fortepiano musiqisini yeni çalarlarla zənginləşdirdiyini müşahidə edirik.

Azərbaycan bəstəkarlarının əsərlərində muğamdan istifadə olunması Üzeyir Hacıbəylidən başlayaraq, demək olar ki, bütün bəstəkarlarda müşahidə olunur. Ü.Hacıbəyli muğamı bəstəkar yaradıcılığına gətirən ilk bəstəkar olmuşdur və onun yaratdığı ənənə bu günə kimi yaşadılır. Lakin fortepiano musiqisi sahəsinin inkişafı Asəf Zeynallının adı ilə bağlı olmuşdur, daha sonra Qara Qarayevin, Cövdət Hacıyevin, Fikrət Əmirovun, Tofiq Quliyevin və digər bəstəkarların yaradıcılığında davam etdirilmişdir.

Azərbaycan bəstəkarları sırasına yeni adlar əlavə olunduqca fortepiano musiqisi mövzu və janr baxımından zənginləşirdi. Bu alət üçün yazılan əsərlərdə yeni janrların mənimsənilməsi maraqlı musiqi nümunələrinin meydana gəlməsinə və bəstəkarların fərdi üslub xüsusiyyətlərinin formalaşmasına yol açırdı. Bu baxımdan Zakir Bağırovun, Soltan Hacıbəyovun, Əşrəf Abbasovun, Elmira Nəzirovanın və digər bəstəkarların əsərləri böyük əhəmiyyətə malikdir. XX əsrin ikinci yarısında Arif Məlikovun, Musa Mirzəyevin, Vasif Adıgözəlovun, Xəyyam Mirzəzadənin, Aqşin Əlizadənin, Fərəc Qarayevin, Azər Dadaşovun, Cavanşir Quliyevin, Sərdar Fərəcovun və başqa bəstəkarların əsərləri ilə Azərbaycan fortepiano musiqisi inkişaf etmiş və yeni nailiyyətlər əldə olunmuşdur. Bu bəstəkarlar məhz Ü.Hacıbəylinin yaratdığı ənənələr üzərində yetişərək, muğamdan istifadə ənənəsini müasir bəstəkarlıq yazı üsulları ilə qovuşdurmuşlar.

Azərbaycan musiqisinin məqam sistemi bəstəkarların əsaslandığı mühüm amildir və musiqi dilində bünövrə əhəmiyyəti daşıyır. Bu amil bəstəkar musiqisində klassik funksional sistemlə və müasir bəstəkarlıq yazı üsulları ilə qovuşma nöqtələrinin araşdırılmasına yol açır. Azərbaycan bəstəkarlarının musiqi təfəkkürünün ənənəvi musiqidən və o cümlədən muğamdan qidalanması musiqi dilinin milli xüsusiyyətlərini üzə çıxarır. Bunların öyrənilməsi xüsusilə milli musiqinin məqam əsası ilə bağlıdır. Fortepiano əsərlərinin bu istiqamətdə araşdırılması milli

məqam sistemi ilə ümumi nəzəri qanunların qarşılıqlı əlaqəsinə əsaslanır. Bu da bəstəkarların musiqi dilində maraqlı cəhətlərin üzə çıxarılmasına imkan verir. [1; 3].

**Dissertasiyanın I fəslinin ikinci paraqrafı – 1.2. "Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığında muğam adlı əsərlər" adlanır.**

Fortepiano musiqisində muğam adlı əsərlər üç bəstəkarın yaradıcılığında nəzərdən keçirilib. Bunlar Asəf Zeynallının "Çahargah" pyesi, Sevda İbrahimovanın "Muğam sədaları" silsiləsi və "Azərbaycan təranələri" məcmuəsinə daxil olan pyeslər, Cavanşir Quliyevin "Muğam səssıralarında interlüdiyalarla yeddi pyes" silsiləsidir. Bu əsərlərin diqqətəlayiq xüsusiyyətlərindən biri muğama aid janrlara və məqam əsasına müraciət olunması ilə bağlıdır. Lakin hər bir əsərdə muğamdan müxtəlif üsullarla istifadə olunmuşdur. Bəstəkar A.Zeynallının əsəri rəng janrının xüsusiyyətlərinə və çahargah məqamına əsaslanır. Lakin buna baxmayaraq, əsər rəng janrına məxsus quruluş, melodik, məqam xüsusiyyətlərindən istifadə edilərək bəstələnmiş orijinal pyesdir. S.İbrahimovanın "Azərbaycan təranələri" məcmuəsindəki pyeslərin əksəriyyəti təsnif janrının xüsusiyyətlərinə əsaslanır. Burada əsl təsnif melodiyaları və məqam əsası saxlanılsa da, onların işlənilməsində özünəməxsus xüsusiyyətlər özünü göstərir, məsələn, vokal melodiyanın instrumental keyfiyyətlər kəsb etməsi bu qəbildəndir. "Muğam sədaları" və "Muğam səssıralarında interlüdiyalarla yeddi pyes" silsilələrində bütün məqamlardan istifadə olunsa da, bəstəkarlar müxtəlif bəstəkarlıq üsullarını tətbiq edərək, məzmun, forma, melodik, harmonik və ritmik baxımından orijinal əsərlər yaratmışlar. Bununla da muğam adlı əsərlərdə muğamdan istifadənin əsas iki üsulunun tətbiqi özünü göstərir: birincisi, muğama aid janr, musiqi məzmunu, melodik, ritmik və məqam xüsusiyyətlərinin işlənilməsi ilə əsərlərin yaradılması; ikincisi, muğamın müxtəlif cəhətləri əsasında orijinal quruluşlu əsərlərin yaradılması üzə çıxır.

Muğam adlı fortepiano əsərlərindən S.İbrahimovanın "Muğam sədaları" silsiləsi maraqlı keyfiyyətlərə malikdir. Silsilə Azərbaycan muğamlarının intonasiyalarına əsaslanan yeddi pyesdən ibarətdir. Bəstəkar hər pyesin əvvəlində "Rast sədası", "Şur sədası", "Segah

sədası”, “Çahargah sədası”, “Bayatı-Şiraz sədası”, “Şüştər sədası”, “Hümayun sədası” kimi adlarla müəyyən məqama aid kadensiyaların not yazısını təqdim edir və pyeslərin məqam-intonasiya xüsusiyyətlərini müəyyənləşdirir. Verilən kadensiyalar müvafiq muğamın melodik quruluşunu, məqam əsasını əks etdirir və pyeslərin mövzu əsasını təşkil edir.

Silsilədəki pyeslər göstərilən muğam sədalarına əsaslanmaqla yanaşı, proqramlı adlar daşıyır: “Segah sədası” – “Əziz anama”; “Şüştər sədası” – “Oyun”; “Hümayun sədası” – “Xahiş”; “Çahargah sədası” – “Mərd olaq”; “Bayatı-şiraz sədası” – “Lirik mahnı”; “Rast sədası” – “Cəsur dost”; “Şur sədası” – “Unudulmaz vətən” adlanır. Hər bir pyes müəyyən muğam sədasının məqam əsası ilə bağlı olmaqla yanaşı, həmçinin, onun obrazlı məzmununu və xarakterini müəyyənləşdirən vasitəyə çevrilir.

“Muğam sədaları” bilavasitə musiqinin məqam əsası ilə birbaşa əlaqələri proqramlaşdırır və müvafiq muğamın məqam əsası üzərində qurulan intonasiya əsasını nəzərdə tutur. Bu məqam-intonasiyaların melodiyalarda tətbiqi müxtəlif üsullarla həyata keçirilir. Pyeslərdə xüsusilə variantlı inkişaf üsulları özünü qabarıq göstərir. Belə ki, pyesin əvvəlində təqdim olunmuş muğam sədasını – məqam-intonasiya özəyini təşkil edən kiçik ibarələrin variantlı təkrarlanması və ya sekvensiyavari hərəkəti melodiyanın geniş surətdə inkişaf etdirilməsinə şərait yaradır. Eyni zamanda, məqam-intonasiya xüsusiyyətləri əsərin harmonik quruluşunun əsasına çevrilir və məqamın istinad pillələrindən təşkil olunur.

C.Quliyevin “Muğam səssıralarında interlüdiyalarla yeddi pyes” silsiləsi hazırlanmış royal üçün bəstələnmişdir. “Muğam səssıralarında interlüdiyalarla yeddi pyes” silsiləsi bu hissələrdən ibarətdir: Prelüd; 1. Rast; İnterlüd; 2. Bayatı-Şiraz; İnterlüd; 3. Segah; 4. Şüştər; İnterlüd; 5. Çahargah; İnterlüd; 6. Hümayun; İnterlüd; 7. Şur.

Silsilədə muğama aid iki janrın – muğam şöbələrinin və rənglərin üslub xüsusiyyətlərindən istifadə olunmuşdur. Bunlardan muğam şöbələrinə uyğun olanlar muğam adları ilə bağlı olub, məqama əsaslanan improvizasiya xarakterli nömrələrdir. Rənglərə uyğun olanlar isə dəqiq metro-ritmik əsasa malik prelüd və

interlüdiyalardır. Burada muğamla bağlı daha bir cəhət ondan ibarətdir ki, muğam adlı improvizasiyalı nömrələrin prelüd və interlüdiyalarla növbələşməsi silsilədə təzadlıq yaratmaqla bir məqamdan digərinə keçidi təmin edir və onları əlaqələndirir.

Prelüd və interlüdiyalarda royalın səslənməsində, müəyyən müdaxilələrlə ud alətinin səsinə, qoşanağaranın çalğısına, divar saatının zənginə bənzətmələr öz əksini tapır. Fortepianonun pillələrinin dəyişdirilməsi silsilədə yalnız prelüd və interlüdlərdə istifadə olunur. Belə ki, aşağı registrdəki dəyişikliklər əgər udun tembrini əldə etməyə imkan verirsə, yuxarı registrdəki dəyişikliklərlə qoşanağaranın səslənməsi əldə olunur. Muğam adlarına uyğun pyeslər sərbəst improvizasiya xarakterlidir. Geniş səs diapazonuna malik olan melodiyalarda müəllif məqamın səssırasından elə pillələri seçir ki, onların vasitəsilə muğamın mayə ətrafında qurulan məqam-intonasiyalarına və kadensiyalara uyğun özəkləri qruplaşdırır, eyniadlı məqamın səssırası üzərində motiv sistemini əsaslandırır.

Beləliklə, adı muğamlarla bağlı olan fortepiano əsərlərinin timsalında muğam bir neçə aspektdən nəzərdən keçirilir: əsərin proqram əsası kimi, üslub xüsusiyyəti kimi, musiqi dilinin ifadə vasitəsi kimi. Muğam adının əsərin proqramı kimi seçilməsi onun məzmununu, üslubunu, məqam-intonasiya, melodik quruluş və ritmik xüsusiyyətlərini şərtləndirir. [6; 7].

**Dissertasiyanın II fəsli "Azərbaycan bəstəkarlarının müxtəlif proqramlı fortepiano pyeslərində milli məqam-intonasiya xüsusiyyətləri" adlanır.** Bu fəsildə Asəf Zeynallının, Qara Qarayevin, Fikrət Əmirovun, Cövdət Hacıyevin və Tofiq Quliyevin müxtəlif proqramlı fortepiano pyeslərini təhlilə cəlb etmişik.

A.Zeynallının "Uşaq süitası" özündə altı pyesi cəmləşdirərək, uşaq dünyasının təcəssümünə həsr olunub. Bəstəkar xalq musiqisindən bəhrələnərək, musiqi dilinin səciyyəvi cəhətləri vasitəsi ilə maraqlı musiqi təəssüratları yaratmağa nail olmuşdur. Bu baxımdan pyeslərin məqam-intonasiya xüsusiyyətləri mühüm əhəmiyyət daşıyaraq, obrazın yaradılmasına xidmət edən amilə çevrilir. Süitanı təşkil edən pyeslər rast, şur, bayatı-şiraz məqamlarına əsaslanır, bu məqamlara xas olan intonasiya

xüsusiyyətləri bəstəkar tərəfindən rəngarəng üsullarla öz həllini tapmışdır. Pyeslərdə həm bir məqama əsaslanma, həm də məqamlar arasında keçidlər özünü göstərir. Pyeslərin məqam əsası musiqi dilinin ifadə vasitələri və məzmunu ilə əlaqəli cəhətlərə malikdir.

Qara Qarayevin "Altı uşaq pyesi" məcmuəsindən proqramlı fortepiano pyesləri məqam-intonasiya xüsusiyyətlərinin tədqiqi baxımından maraqlı cəhətlərə malikdir. Bu pyeslərin musiqi dilində məqam əsası özünü qabarıq göstərir. Məqam əsası melodiyanın quruluşunda, müxtəlif dayaq pillələri ətrafında gəzişmələrdə, kadensiya dönmələrində, melodiya ilə harmoniyanın qarşılıqlı əlaqəsində özünü göstərir. Melodik quruluşda məqamın istinad pillələri ilə major və ya minorun funksional əsasının üst-üstə düşməsi öz əksini tapır. Bu baxımdan musiqi məzmununun inkişaf prosesində musiqi dilində özünü göstərən xromatikləşmə, həmçinin yönəlmə və modulyasiyalar həm muğamla bağlı məqam xüsusiyyətləri, həm də major-minor sisteminin uzlaşmasında izah olunur. Q.Qarayevin pyeslərində bayatı-şiraz məqamına üstünlük verildiyini qeyd edə bilərik, eyni zamanda, rast, segah məqamlarına da rast gəlinir ki, bu da çox zaman əsərin xarakteri ilə bağlı olur. Pyeslərdə məqamlararası keçidlər də özünü göstərir və əhvali-ruhiyyənin dəyişməsinə işarə edilir. Q.Qarayevin pyeslərində məqamlar arasında, eləcə də major-minor sistemi ilə uzlaşmalar musiqi dilində özünəməxsus cəhətlər kimi qeyd olunur.

Fikrət Əmirovun fortepiano pyeslərinin məqam-intonasiya baxımından təhlili də maraqlı cəhətləri üzə çıxarır. F.Əmirovun nəzərdən keçirtdiyimiz pyeslərində demək olar ki, bütün məqamlardan, xüsusilə də şur məqamından istifadə olunması diqqəti cəlb edir. "Uşaq lövhələri", "12 miniatür" məcmuələrindəki pyeslərdə bunu qabarıq görürük. Pyeslər müxtəlif məzmunlu olub, musiqi ifadə vasitələrinin rəngarəngliyi ilə seçilir. Bəstəkar onların obrazlı məzmununu və xarakterini açmaq üçün daha çox şur məqamına müraciət etmişdir. Bununla yanaşı, bayatı-şiraz, şüştər, çahargah məqamlarına əsaslanan pyeslər də məcmuədə yer almışdır. Bir neçə miniatürdə isə rast və şur məqamları arasında yönəlmə və modulyasiyalar müşahidə olunur. F.Əmirovun musiqi üslubuna xas olan muğamvarilik fortepiano pyeslərində də öz təzahürünü tapır. Bu

əsərlərdə musiqi dilinin məqam əsası qabarıq olmaqla muğama xas improvizasiya tipli hərəkət xətti ilə uzlaşır. Eyni zamanda, pyeslərin harmonik dilində məqam əsasının klassik major-minorla qovuşması özünü büruzə verir.

Cövdət Hacıyevin "Musiqi lövhələri" məcmuəsində uşaq həyatını əks etdirən lövhələr, hadisələr təsvir olunur. Bəstəkar uşaqların psixologiyasını nəzərə alaraq rəngarəng ifadəli üsullardan istifadə etmişdir. Məcmuədəki pyeslərin musiqi dilində forma, melodika, harmoniya, məqam-intonasiya və ritmik xüsusiyyətlər obrazların açılmasına yönəldilmişdir. Pyeslərin tonallıq planında major-minor sisteminin muğamla bağlı məqam-intonasiya əsası ilə uzlaşması dayaq pillələri əsasında baş verir. Pyeslərdə rast, şur, segah, çahargah, bayatı-şiraz, şüştər, hümayun məqamlarına həm diatonik, həm də alterasiyalı şəkildə rast gəlinməklə, onların musiqi dilində məqamlararası yönəlmə və modulyasiyalara da təsadüf olunur.

C.Hacıyevin "Ballada" konsert pyesi bəstəkarın muğama müraciətinin özünəməxsus xüsusiyyətlərini üzə çıxarır. "Ballada"nın fakturası çoxsəsliliyi və zənginliyi ilə seçilir. Bu əsərdə tonallıq və məqam cəhətdən qeyri-sabitlik və ölçü dəyişkənliyi hökm sürür. Daha çox harmonik modulyasiyalar özünü göstərir. C.Hacıyev muğamdan və onun əsasını təşkil edən məqamlardan yaradıcılıqla istifadə etmişdir. Bu əsərdə segah, şur və hümayun məqam-intonasiyaları üstünlük təşkil edir. Milli məqamlardan istifadə baxımından C.Hacıyevin "Ballada" əsərində yeni cizgilər üzə çıxır. Belə ki, məqamların funksional özəyinin major-minor sisteminə uyğun cəhətlərinə əsaslanaraq, onlar harmonik səs birləşmələrinə daxil edilir, yönəlmə və modulyasiyalarda da bu cəhətlər önə çıxır. Bunu xüsusilə şur məqamı timsalında görə bilərik. Belə ki, şur məqamının funksional özəyi minora uyğundur. Lakin C.Hacıyev şur məqam-intonasiyalarını major kontekstinə daxil edir ki, bununla da musiqi dilinə yeni cizgilər aşılanır.

Tofiq Quliyevin fortepiano pyeslərində musiqi dili maraqlı xüsusiyyətlərə malikdir və bəstəkarın musiqi üslubunu əks etdirir. T.Quliyevin "Cəmilənin albomu" məcmuəsindəki pyeslərdə də melodik xəttin inkişafında muğam intonasiyaları özünü büruzə verir.

T.Quliyevin pyeslərinin musiqi dilinin təhlili göstərir ki, bəstəkar obrazların açılmasında bədii ifadə vasitələrindən rəngarəngliklə istifadə edir. Bu sırada məqam əsası da mühüm əhəmiyyətə malikdir. Belə ki, pyeslərdə məqam əsas ilə yanaşı, major və ya minor tonallıqlarının uzlaşdırılması qeyd olunmalıdır. Eyni zamanda, melodik hərəkət məqamın əsas istinad pillələri ətrafında qurularaq, səssırasında xromatikləşmədən geniş istifadə olunur. Xromatik gedişlər bəzi hallarda məqamın səssırasının zənginləşdirilməsinə, bəzən isə digər məqamlara yönəlmə və modulyasiyalara yol açan vasitəyə çevrilir. Bununla yanaşı, melodik inkişafda əsas məqam-tonallıq göstəricisi kimi məqamın tonikası əsas dayaq pilləsi olaraq önə çıxır. Bu da T.Quliyevin fortepiano pyeslərində məqam əsasının özünəməxsusluğu ilə bağlı cəhət kimi diqqətəlayiqdir.

Azərbaycan bəstəkarlarının müxtəlif proqramlı fortepiano pyeslərindəki obrazlar aləminin xüsusiyyətləri və fortepiano fakturası bir çox cəhətlərlə bağlıdır. Bunların arasında muğamla bağlı olan melodik quruluş, məqam-intonasiya xüsusiyyətləri mühüm yer tutur. Bu xüsusiyyətlər, bir tərəfdən, əsərin məzmunu ilə bağlı olub, onun bədii-emosional təsirinin açılmasına xidmət edir, digər tərəfdən isə əsərin musiqi dilinin vacib ifadə vasitələrindən birinə çevrilir. [9].

**Dissertasiyanın III fəsli – “Prelüd və variasiyalarda muğamların nəzəri əsası”** adlanır və iki paraqrafdan ibarətdir.

**Birinci paraqrafda – 3.1. “Fortepiano prelüdlərində məqam-intonasiya xüsusiyyətlərinin təzahürü” təhlil olunur.**

Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığında prelüd janrı xüsusi yer tutur. Bu janra demək olar ki, bütün bəstəkarlar müraciət etmiş, həm prelüdlər silsiləsi, həm ayrı-ayrı prelüdlər, həm də prelüd və fuqalar yaratmışlar. Bu sırada Qara Qarayevin “24 prelüd” silsiləsi, Vasif Adıgözəlovun “24 prelüd” silsiləsi diqqətəlayiqdir. Bundan əlavə, bir sıra bəstəkarların (məsələn, F.Əmirov, T.Quliyev, E.Nəzirova və b.) yaradıcılığında daha kiçik, məsələn, iki və ya altı prelüddən ibarət silsilələrə rast gəlinir.

Qara Qarayevin fortepiano üçün yazdığı “24 prelüd” silsiləsi musiqi dilinin bədii ifadə vasitələrinin tətbiqi baxımından maraqlı əsərlərdəndir. Silsilə 4 dəftərdən ibarət olub, hər birində altı prelüd toplanmışdır. Silsilədəki prelüdlərin təhlili çoxcəhətli obrazlar

dairəsini nümayiş etdirir. Burada fəal hərəkətli, dəyişməz nəbzli, məzəli qroteskli, tokkata tipli prelüdlər, kövrək ahəngli, qəmli əhvali-ruhiyyəli prelüdlərlə, yüngül, şən ahəngli, gənclik həyatsevərliyi ilə canlanan prelüdlərlə növbələşir. Prelüdlər arasında müasir reqtaym, blyuzun janr xüsusiyyətləri və qədim musiqinin üslub xüsusiyyətləri məharətlə bir-birinə qovuşur. Prelüdlər emosional məzmun baxımından rəngarəng və yaddaqalandır. Bunlarda Azərbaycan milli musiqi yaradıcılığı xüsusiyyətlərinin tətbiqi aydın surətdə təzahür edir.

"24 prelüd" silsiləsindəki pyeslər kvinta dairəsi üzrə (C-dur – f-moll) bütün tonallıqları əhatə edir, bir major prelüdü eyniadlı minor prelüdü ilə növbələşir (C, c, G, g, D, d və s.). Prelüdlərin məqam əsasının öyrənilməsində onların tonal planı mühüm əhəmiyyətə malikdir. Azərbaycan milli musiqi ənənələrinə əsaslanan bəstəkar üçün major-minor sistemi və xromatik səs sistemi çərçivəsində muğamla bağlı məqam-intonasiya xüsusiyyətlərinin tətbiqi mühüm əhəmiyyətə malikdir. Bu baxımdan prelüdlərin musiqi dilində major və rast məqamının səssırası əsasən üst-üstə düşdüyünə görə bəstəkar onların melodik və harmonik özəyinin uzlaşdırılmasına nail olmuşdur. İnkişaf prosesində getdikcə xromatik səslərlə dolğunlaşma verilir. Bu da musiqi dilinin mürəkkəbləşməsinə və tonallıq keçidlərinə şərait yaradır. Məqam əsasına görə minor prelüdlərində eyni tonikalı şur məqamı ilə uzlaşma özünü göstərir. Bütün bunlar melodik-harmonik quruluşda muğam intonasiyalarının qovuşmasında təzahür edir. Məqam əsası ilə yanaşı, prelüdlərin musiqi dilində muğamdan istifadəni iki cəhətdən xarakterizə etmək olar. Birincisi, muğamvari melodik quruluşla bağlıdır. Bu halda muğama xas olan məqam pillələri üzərində sərbəst gəzişmə improvizasiyalı reçitativ quruluşlu melodik inkişafa yol açır. İkincisi isə lirik təsnif və virtuoz rəng xarakterli melodiyalarla bağlıdır, bu da melodik forma, ritm-intonasiya xüsusiyyətlərində öz əksini tapır.

Vasif Adıgözəlovun "24 prelüd" silsiləsindəki pyeslərin musiqi dili maraqlı cəhətlərə malikdir. Silsilədəki prelüdlər təzadlıq prinsipinə görə növbələşir. Burada temp və bədii obraz məzmunu, musiqi dilinin xüsusiyyətlərinə görə prelüdlər təzadlıq təşkil edir və gözümüzün qarşısında bir-birini əvəz edən rəngarəng lövhələr

canlanır. Bir sıra prelüdlərin həm emosional məzmununda, həm də musiqi ifadə vasitələrində muğamdan gələn cəhətlər diqqəti cəlb edir. Bunların sırasında meditasiyanı xatırladan ifadə tərzini, lirik-fəlsəfi məzmunu, melodik inkişaf xüsusiyyətlərini qeyd edə bilərik.

V.Adıgözəlovun prelüdləri formasına görə əsasən üçhissəli quruluşa malikdir. Burada kənar hissələr eyni, orta hissə isə çox geniş inkişaflı olmasına görə fərqlənir. Bu cür quruluş muğamda mayədən başlayan hərəkət xəttinin mərhələlərlə yüksələrək kulminasiyaya çatdırılmasını və yenidən mayəyə qayıdışı əks etdirir. Musiqi materialının inkişafı prosesində özünü göstərən muğamla bağlı daha bir cəhət melodik xəttin mürəkkəbləşdirilməsidir. Belə ki, əsasən instrumental muğam ifaçılığında bu cəhət özünü çox qabarıq göstərir. Muğamla bağlılıq həmçinin prelüdlərin məqam əsasının araşdırılmasında da təzahür edir. Vasif Adıgözəlovun prelüdlərinin təhlili göstərir ki, bəstəkar muğamın məqam-intonasiya, melodik və ritmik xüsusiyyətlərini, ifaçılıq ənənələrini dərindən mənimsəmişdir. Bütün bunları bəstəkar kiçik formalı instrumental janrda əks etdirmişdir. Prelüdlərdə muğamla bağlı bir sıra cəhətlər özünü göstərir: məqam-intonasiya xüsusiyyətləri, mövzunun inkişaf üsulları, melodik və ritmik variasiya olunma və s. bu qəbildəndir.

Beləliklə, fortepiano əsərləri timsalında muğamın məqam-intonasiya xüsusiyyətlərindən istifadə məsələsində müəyyən cəhətlər üzə çıxır. Əsərlərdə məqamın tam səssırasından deyil, əsasən intonasiya xüsusiyyətlərindən istifadə üstünlük təşkil edir. Bəstəkarlar bir məqamın çərçivəsində məhdudlaşmayaraq, adətən bir neçə məqamı major-minor sistemi ilə qovuşdurulmuş şəkildə istifadə edirlər. Bütün bunlar müasir səs birləşmələrinin, harmonik komplekslərin tərkibinə daxil edilir. [8].

**Dissertasiyanın III fəslinin ikinci paraqrafı – 3.2. "Variasiyalarda muğamın məqam-intonasiya və melodik quruluş xüsusiyyətlərinin təhlili" adlanır.**

Azərbaycan bəstəkarlarının variasiya formasında yazılmış əsərlərində melodik və məqam-intonasiya xüsusiyyətlərinin təhlilinin aparılması bir sıra məsələləri önə çəkir. Burada variasiya janrına məxsus özünəməxsus formanın – "mövzu və variasiyalar" formasının daxili quruluşunun dəyişilmələrə əsaslanması mühüm amildir ki, bu

da özlüyündə muğam sənətinə xas olan bir sıra cəhətlərlə əlaqələri əks etdirir. Variasiya – həm janr, həm forma, həm də musiqi inkişafının əsas xüsusiyyətlərindən biri kimi Azərbaycan ənənəvi musiqisində və bəstəkar yaradıcılığında özünü göstərir.

Bir çox bəstəkarlar fortepiano üçün variasiyalar yaratmışlar və bu əsərlər musiqi proqramlarına daxil olmuşdur. Bunlardan Fikrət Əmirovun, Tofiq Quliyevin və digər bəstəkarların "Variasiyalar" adlı əsərlərini göstərə bilərik. Bunlar müxtəlif vaxtlarda yazılmışdır.

F.Əmirovun "Variasiyalar"ı mövzu və altı variasiyadan ibarətdir. Əsərin quruluşunda variasiyalar təzadlıq prinsipi ilə ardıcıllaşır və obrazın vahid inkişaf xəttinin mərhələləri kimi özünü göstərir. Bu silsilə daxilində muğamdakı variasiyalı inkişaf xüsusiyyətləri özünü aydın büruzə verir. Xüsusilə mövzunun müxtəlif cəhətlərdən variasiya olunması nəticəsində musiqi dilinin rəngarəngliyi artır ki, bu da vahid bədii məqsədə yönəldilərək, muğama xas olan cəhətlərlə sıx bağlıdır. Variasiyaların melodik-harmonik quruluşu, fakturanın ifadə tərzi, ritmik xüsusiyyətlər əsərin musiqi dilinin təhlili zamanı maraq doğurur.

Üslub xüsusiyyətlərinə görə "Variasiyalar"ı "Dəraməd"lə müqayisə edə bilərik. Belə ki, bu janra xas olan dəqiq ritmik əsaslı melodik məzmunun variasiyalı ifadəsi, məqamın əsas istinad pillələrinə əsaslanan quruluş xüsusiyyətləri "Variasiyalar"da özünü göstərir.

F.Əmirovun "Variasiyalar"ı maraqlı musiqi dilinə malikdir. Əsərin məqam əsası diqqətəlayiqdir. Mövzunun şur məqamı üzərində qurulması, inkişaf prosesində məqam-tonallığın dəyişməsi əsas cəhətlər kimi qeyd olunmalıdır. Sxematik olaraq, əsərin məqam-tonallıq planını bu şəkildə göstərə bilərik: "e" şur – "h" şur – "h" şüştər – "e" şur – "es" şur – "e" şur. Burada "e" şurdan – "h" şura keçid istinad pillələrinin dəyişməsi – kvinta tonunun, "e" şurda "h" səsinin tonikaya ("h" şur) çevrilməsi vasitəsilə baş verir; "h" şurdan "h" şüştərə keçid isə qammavari hərəkətlə melodik modulyasiya olaraq həyata keçirilir. İki məqam arasındakı quruluş fərqləri onların fərqli pillələrini üzə çıxarır. Bu fərqlər məqam-intonasiya rəngarəngliyinə səbəb olur. "h" şüştərdən "e" şura keçid isə birbaşa verilir. Eyni zamanda, "e" şurdan – "es" şura keçid hazırlıqsız

modulyasiya şəklində olur. Sonda isə əsas məqam-tonallığa qayıdış əsərin məqam-tonallıq planını bütövləşdirir və yekunlaşdırır.

T.Quliyevin 1953-cü ildə yazdığı mövzu və on variasiyadan ibarət fortepiano üçün "Variasiyalar"ı bir çox pianoçuların konsert repertuarına daxil olan əsərlərdən biridir. Mövzunun musiqi dili milli xüsusiyyətləri ilə diqqəti cəlb edir. Onun tematizmi, məqam əsası və intonasiya quruluşu variasiyalarda daha da inkişaflı, mürəkkəb və zəngin faktura kəsb edir. "Variasiyalar" silsiləsinin məqam-tonallıq planını ümumi şəkildə xarakterizə edərək deməliyik ki, bu, bir neçə mərhələdən ibarətdir. Burada major-minor sistemi əsasında şur məqamı ilə qovuşma nöqtələri üzə çıxır. Əsas tonallıq b-moll olmaqla, burada Des-dur və es-moll-a keçidlər özünü göstərir və sonda əsas tonallıq qayıdır. Bunu ekspozisiya, işlənmə və repriza mərhələləri kimi xarakterizə etmək olar. Bu tonallıq dəyişmələri inkişaf prosesində baş verir və formanın bütövləşməsinə şərait yaradır. Bu cür məqam-tonallıq quruluşu muğam silsiləsində də öz əksini tapır.

"Variasiyalar"ın musiqi quruluşunda tonallıqların milli məqam-intonasiyalarla qovuşması özünü qabarıq göstərir. Bəstəkar eyni tonikalı minor və şur məqamlarının ümumi ortaq pillələrindən istifadə edir, melodiyada şur məqam-intonasiyaları, harmoniyada minorun funksional quruluşu önə çıxır. Majora yönəlmə zamanı isə rast məqam-intonasiyaları üzə çıxır. Şurdan rast məqamına keçid muğamda ənənəvi sayılır.

Silsilədə hər bir variasiya vahid tamın bir hissəsi olmaqla, həmçinin daxili quruluşda daha müstəqil xarakterə malikdir. Burada hər bir variasiyanın öz quruluşu və inkişaf xətti olmaqla yanaşı, eyni zamanda, bəstəkar onların arasında bağlılıq yaradaraq, ardıcıl inkişafa nail olur. Burada diqqəti cəlb edən cəhətlərdən biri də odur ki, hər bir variasiyanın musiqi məzmununun müəyyən cəhətləri sonrakı variasiyada istifadə olunaraq, onun davamına çevrilir və bu da musiqi dilində bağlılıq əmələ gətirir. Bu kimi cəhətlər muğamla bağlı olub, bəstəkar tərəfindən fortepiano musiqisində variasiya janrının əsas xüsusiyyətləri ilə əlaqəli şəkildə tətbiq olunmuşdur.

Beləliklə, məqam əsası əsərin musiqi dilinin mühüm ifadə vasitəsinə çevrilməklə, bəstəkarın təfəkkürünün dərin qatları ilə bağlıdır. Bu halda bəstəkarın muğama münasibəti, ondan

bəhrələnməsi musiqi əsərinin ifadə vasitələrinin seçiminə təsir edir. Eyni zamanda, məqam-intonasiya xüsusiyyətləri ilə major-minor sisteminin qovuşması da bəstəkarların yaradıcılıq təxəyyülü ilə bağlı olub, musiqi dilinin zənginləşdirilməsinə yol açır.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur.

Muğamla bağlı xüsusiyyətlər bəstəkar əsərlərində üzvi surətdə musiqi dilinin ifadə vasitələrindən birinə çevrilərək, müxtəlif şəkildə təzahür edir. Fortepiano musiqisində muğamın kompozisiya, məqam əsası, melodik, ritmik quruluşu kimi xüsusiyyətlərindən istifadə olunur, eləcə də muğamın inkişaf prinsipləri, məqam-intonasiya əsasına istinad özünü büruzə verir. Bu baxımdan muğamın emosional məzmununu ifadə edən melodik və məqam-intonasiya xüsusiyyətləri əsərdə müəyyən obrazın və ya koloritin yaradılmasında mühüm əhəmiyyətə malik olur.

Dissertasiyada fortepiano əsərlərinin araşdırılmasında bir neçə istiqamətdə bölgü aparılmışdır: proqramlı adı muğamlarla və muğama aid janrlarla bağlı əsərlər; müxtəlif proqramlı əsərlər; prelüd və variasiyalar. Bu üç istiqamətdə cəmləşdirilmiş fortepiano əsərlərinin musiqi dilinin təhlili aparılmış, muğamın məqam-intonasiya, melodik quruluş xüsusiyyətlərinin təzahürləri üzə çıxarılmışdır.

Bəstəkarların musiqi dilində muğamla bağlı məqam-intonasiyalar genetik kod daşıyıcısına çevrilir və əsərin milli xüsusiyyətlərini əks etdirir. Eyni zamanda, muğamla bağlı məqam-intonasiya amili bəstəkarların həm melodik, həm harmonik dilinə öz təsirini göstərir ki, bu da kompleks təhlildə üzə çıxır. Bütün bunlar bəstəkarların daim yeni ifadə vasitələri axtarışlarına təkan verir. Bir çox bəstəkarların yaradıcılığında muğamdan istifadə məhz məqam-intonasiya əsasları ilə bağlı özünü göstərir. Belə ki, əksər bəstəkarlar üçün muğama müraciət muğamvari melodiyanın yaradılmasını və məqam-intonasiya xüsusiyyətlərindən istifadəni önə çəkir. Bu halda musiqi quruluşunda bir sıra cəhətlər qeyd olunmalıdır: melodik quruluşun əsas qanunauyğunluqları, məqam səssırasında əsas istinad pillələri ətrafında dolanan hərəkət, melodiyanın müxtəlif yollarla – variantlıq, variasiyalılıq, sekvensiyalılıq və s. inkişafı öz əksini tapır. Məqamlardan həm diatonik, həm də xromatik halda istifadə olunur ki, bu da harmonik komplekslərdə zəngin məqam-intonasiya boyaları

yaratmaqla yanaşı, major-minor sistemi ilə qarşılıqlı əlaqələri üzə çıxarır: bu halda məqam əsasının melodiya və harmoniya ilə əlaqələri qabarıq olur.

Beləliklə, fortepiano musiqisinin araşdırılması göstərdi ki, professional bəstəkarlıq prinsiplərini ənənəvi musiqiyə tətbiq edən bəstəkarlar milli musiqinin imkanlarını genişləndirmişdir. Buna görə də Azərbaycan bəstəkarlarının fortepiano musiqisi Şərq və Qərb musiqi mədəniyyətlərinin qovuşması baxımından böyük əhəmiyyət kəsb edir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**


1. Abasova, N.N. Azərbaycan bəstəkarlarının fortepiano əsərlərində məqam-intonasiya xüsusiyyətlərinin tədqiqi məsələləri // – Bakı: Musiqi dünyası, – 2020. № 4/85, – s. 74-78.
2. Abasova, N.N. Azərbaycan bəstəkarlarının fortepiano pyeslərində məqam əsasının təhlili məsələləri // – Bakı: Musiqi dünyası, – 2021. № 1/86, – s. 57-60.
3. Абасова, Н.Н. Особенности мелодий и ладов в мугамах в творчестве азербайджанских композиторов // Культура, наука и искусство в истории и современности, Материалы XCIV Международной научно-практической конференции, – Казань, Россия: – 25 марта, – 2021, – с. 98-102.
4. Abasova, N.N. Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığında muğamdan istifadə problemləri // Bəstəkar və zaman, Respublika elmi konfransının materialları və elmi məqalələr toplusu, – Bakı: – 20 – 21 aprel, – 2021, – s. 6-13.
5. Abbasova, N.N. Azərbaycan fortepiano musiqisində muğamla bağlı xüsusiyyətlərin tədqiqi // – Bakı: Musiqi dünyası, – 2022. № 2/91, – s. 73-76.
6. Абасова, Н.Н. Вопросы использования мугама в фортепианных произведениях азербайджанских композиторов // – Москва: Музыковедение, 2022. №6, – с. 28-32.
7. Abasova, N.N. Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığında muğamla bağlı proqramlı əsərlər // – Bakı: Sənət Akademiyası, – 2023. № 1/21, – s. 67-80.

8. Abasova, N.N. Azərbaycan bəstəkarlarının kiçik formalı fortepiano əsərlərində muğamın məqam-intonasiya xüsusiyyətlərinin araşdırılması // – Bakı: Musiqi dünyası, – 2023. № 2/95, – s. 34-38.
9. Abasova, N.N. Azərbaycan bəstəkarlarının müxtəlif proqramlı fortepiano pyeslərində məqam əsasının xüsusiyyətləri // Xoreoqrafiya sənətinin aktual problemləri, Beynəlxalq rəqs gününə həsr olunmuş II Beynəlxalq elmi simpoziumun materialları, – Bakı: – 30 aprel – 1 may, – 2023, – s. 5-9.





24

Dissertasiyanın müdafiəsi ___30___ ___yanvar___ 2025-ci il tarixində saat ___11⁰⁰___ Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Ş.Bədəlbəyli küç. 98

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___27___ ___dekabr___ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.12.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 39852 işarə

Tiraj: 100